**Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün Azərbaycan Respublikasında həyata keçirilməsinə dair Anlaşma Memorandumunun imzalanması mərasimində Birləşmiş Krallığın Səfiri cənab Lourens Bristounun çıxışı, 24 noyabr 2004**

Bu gün MİneraI Ehtiyatların Hasilatı Sənayesində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda həyata keçirilməsində mühüm addımın atılması ilə əlamətdardır. Mən, bu təşəbbüsün həyata keçirilməsi haqqında razılıq əldə etmək üçün çalışmış Azərbaycan Hökumətini, neft şirkətlərini və qeyri-hökumət təşkilşatlarını təbrik edirəm.

Təşəbbüsün Azərbaycanda həyata keçirilməsinin məqsədi Azərbaycanın neft ehtiyatlarının istifadəsində şəffaflığın və cavabdehliyin artırılmasından ibarətdir. Azərbaycanın təbii ehtiyatları onun stabil və çiçəklənən demokratik ölkə kimi inkişafının təmin edilməsi üçün istifadə oluna bilər və istifadə olunmalıdır. Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü bu məqsədə nail olmağa yardım göstərir.

Təşəbbüs butun tərəflər üçün faydalıdır:

- ✓ Təşəbbüs Azərbaycanda demokratiyanı və yaxşı idarəçiliyi möhkəmləndirməyə kömək edə bilər. Dövlətə axan neft gəlirləri Azərbaycan xalqına məxsusdur. Bu gəlirləri ölkənin və onun vətəndaşlarının faydası üçün idarə etməyə və ictimaiyyətə onların istifadəsİ haqqında hesabat verməyə görə dövlət məsuliyyət daşıyır. Təşəbbüsün həyata keçirilməsi bu sərvətin demokratik qaydalara uyğun olaraq idarə edilməsində Azərbaycana kömək edəcək.

- ✓ Təşəbbüs şirkətlər və investorlar üçün faydalıdır. O, neft şirkətlərinin siyasi və iqtisadi qeyri-stabilliklərin təsirinə məruz qalmaları riskini azaldır- şirkətlər Azərbaycana xeyli sərmaye qoymuşlar və gəlir əldə etmək üçün uzunmüddətli stabillikdən asılıdırlar. Təşəbbüs həmçinin onların nüfuzünun zəifləməsi riskini azaldır. Bu çox vacibdir, çünki neft şirkətlərinin Azərbaycanda fəaliyyət görmək imkanları Azərbaycan xalqının razıhğından asılıdır. Şəffaflığın və cavabdehliyin artırılması daha geniş biznes mühitinin yaxşılaşdırılmasına kömək edir. Təşəbbüsün uğurla həyata keçirilrnəsi investorlara və beynəlxalq maliyyə qurumlarına Azərbaycanın müasir, açıq və şəffaf investisiya mühiti yaratmaq istəyi haqqında siqnal göndərə bilər. Bu istər xarici, istərsə də yerli investorlara iqtisadiyyatın bütün sahələrində köməkdir.

- ✓ Təşəbbüs vətəndaş cəmiyyətini iki tərəfdən möhkəmləndirir. Bir tərədən, o, hökumətin vətəndaşların adından idarə etdiyi gəlirlər haqqında ictimaiyyətdə olan məlumatı artırır. Digər tərəfdən, Təşəbbüs, hökumət tərəfindən vətəndaşların adından qəbul edilən qərarları, həmçinin ölkədə böyük kommersiya şirkətlərinin fəaliyyətini anlamaq və onlara təsir göstərməkdə ictimaiyyətin gücünü artırır.

Bu gün Hökumət, neft şirkətləri və vətəndaş cəmiyyəti nümayəndələri arasında imzalanan Qarşılıqlı Anlaşma Memorandumu Təşəbbüsün Azərbaycanda həyata keçirilməsi prosesinin başa çatması deyil. Lakin bu irəiiyə doğru mühüm addımdır.

Memorandum Azərbaycaninın neft gəlirləri üzrə ilk hesabatların hazırlanması və dərc edilməsinə yol açır. Ümidvaram ki, bu, qarşıdan gələn aylarda baş verəcək və Azərbaycan dünyada bu addımı atan ilk dövlətlərdən biri olacaq.

Hesabat dərc ediləndən sonra, biz hamımız, Azərbaycanda hansı nəticələr əldə olunduğunu və Təşəbbüsün təkmilləşdirilməsi yollarını nəzərdən keçirməli olacağıq. Kütləvi informasiya vasitələri və vətəndaş cəmiyyəti təşkilatları bu işdə vacib rol oynayacaqlar.

Daha geniş kontekstdə, biz Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünü global miqyasda yenidən nəzərdən keçirməli olacağıq. Böyük Britaniya Hökuməti, indiyə qədər Təşəbbüsün həyata keçirilməsində əldə edilmiş təcrübəni və gələcək perspektivləri müzakirə etmək məqsədilə 2005-ci ilin mart ayında Londonda HasİIetmə Sənayesində Şəffaflıq Təşəbbüsü üzrə Zirvə Toplantısı

keçirmək planlaşdırır. Ümid edirəm ki, o vaxta qədər Azərbaycan, bu gün imzalanan Memorandumun nəticəsi olaraq bu yolda lider olduğunu göstərə biləcək.

Bir daha, bütün maraqlı tərəfləri əldə olunmuş tərəqqi münasibətilə təbrik etmək və Hasilat SənayesIndə Şəffaflıq Təşəbbüsünü reallığa çevirmək üçün göstərdiyiniz səylərə görə sizə təşəkkür etmək istərdim.